Qəmli kişiyə elə gəldi ki, bu oğlan pələng kimi ovladığı şikarı ilə məzələnir. Məzələnməsinə səbirlə yanaşırdı, onsuz da itirdiyini itirmişdi. Cavan oğlan borşun üstündən Kiyev kotleti gələnə qədər nazik siqaretlərdən birini çıxarıb odladı. Tüstünü havaya fısqırdıb kişinin gözlərinin içinə baxdı. Nəsə demək istəyirdi. Görünür, uşaqlar bozbaşdakı əti axırda yedikləri kimi, o da vacib sözünü sona saxlamışdı. Kiyev kotleti gələndə kişinin qarşısındakı nimçəyə ikisini qoyub "bon appetit" deyib yarımçıq qalan siqaretini külqabıda söndürdü; "söndürdü" demək azdır, əzişdirib qol-qıçını sındırdı;

-Fotonuzu ona güclə gətirdəndən sonra iş yerinizi də öyrəndim. Onun etibarını elə qazanmışdım ki... elə bir sirr qalmamışdı ki, bölüşməsin: Bir dəfə gecə sizin ona yaxınlaşanda başının ağrıması bəhanəsindən tutmuş, aldığınız soğanın xırdalığına əsəbiləşib eyvandan aşağı tolazlamasına qədər hər şeydən xəbərim vardı.

-Bunları da demişdi?

-İndi təsəvvür edin də... - deyə gülümsədi: - Bu illər ərzində onu tanıya bilməmisiz? Heç ağlınıza gətirmədiz ki, sizə qarşı belə şərəfsizlik edər?

-Onu bu yola siz məcbur etmisiz. Sizin diliniz ilanı da yuvasından çıxarar.

-Nə olsun ki, şirin dilimə salıb onu yoldan çıxartdım? Nə olsun ki... - ardını gətirməyib gülümsədi, deyəsən demək istədi ki, fərli-başlı qadın olaydı, aldanmayaydı. Cavan oğlan çəngəllə deşdiyi kotletdən yağın axmasına baxıb şaqqanaq çəkdi. Sanki onun başında nəsə çatmırdı. Şaqqanağını xırp kəsib sinidəki xörəyi kənardakı masaya aparan ukraynalı qızın dizdən yuxarı naxışlı donunun yellənməsinə hərisliklə baxdı:

-Əntiqə qadındır, - deyə şit-şit güldü. Axan saniyələr sifətini ciddiləşdirdi: - Bilirsiz nə var? Burda şərəf və ləyaqət barədəki mühazirəmə son qoyuram. Sizi bura auditoriyaya çağırmamışam. Ciddi mətləbə keçək. Qadınların öz əxlaqsızlığına verdikləri bəraətin ilk cümləsi belə olur: "Ərim çox əclaf idi". Neçə illərin qız tutanlarından biriyəm, saçımı bu işdə ağartmışam. Qarşıma çoxları çıxıb və vəhşi atları ram etmək mənimçün su içmək qədər asan olub. Bezmişəm eyni sözləri deməkdən, eyni üsulları işlətməkdən. Bilirsiz, mən əvvəlcə kəməndə salıram, özümə vurğun edirəm, sonra laqeyd yanaşıram, onlar da qalırlar yalvarmağa, sısqamağa, özlərini intihar həddinə çatdırmağa. Ağlayıb-sızlamaları dünəndən vecimə deyil, ancaq bir məsələdə qorxuram: laqeydliyim onları intihar dərəcəsinə çatdıra bilər deyə qorxmuşam; axı özlərini öldürsələr zibilə düşərəm?! Bu işdən ləzzət aldığım - özündən razı gözəlləri kəməndimə keçirəndən sonra laqeyd yanaşıb qıcıqlandırmaqdır. Sadəcə anladıram ki, özünüzdən az razılıq edin, bilmirdiz ki, kişilərlə zarafat etmək olmaz. Eybəcər qızların isə həyata inamını artırıram, axı onları heç vaxt mənim kimi yaraşıqlı kişi sevməyib?! Sevinirlər ki, Tanrı onları heç də eybəcər yaratmayıb, bu həyatda nəyəsə yarayırlar. Onları da kimsə sevə bilər, özü də şəhərin ən model oğlanlarından biri. Gecələr başlarını balınca qoyanda Allaha yalvarırlar ki, səhərlər tez açılsın, təzə paltarlarını geyinib cəmiyyət arasına çıxsınlar, adamlara gülümsəsinlər, Günəşdən enerji alsınlar, moda jurnallarını vərəqləsinlər, tatu salonlarına baş vursunlar. Onları necə də xoşbəxt edirəm... mən bunu bacarıram.

-Bəs arvadımı xoşbəxt edə bildiz?

-Mən onu da xoşbəxt etdim və istəyirəm ki, ömrümüzün sonuna qədər birgə qalaq. İndi isə sevgimizi rəsmiləşdirmək qərarına gəlmişik. Onunla evlənirəm. Bilirəm, bu sizə heç də yaxşı təsir etmədi, amma nikah bağlamağa hazırlaşırıq. Görürəm qaşlarınız çatıldı. Qızınızdan ötəri narahat olmayın. Qərara aldıq ki, o, gələcək qayınanamla qalsın. İki dəfə toy edəcəyik. Bir toyu burda, o biri toyu arzularımın şəhəri Vyanada. Bal ayını isə Malayziyada keçirəcəyik. Hələ Tibet monastırlarına da baş çəkəcəyik ki, ailə həyatımıza xeyir-dua versinlər. Siz ona çox əziyyətlər vermisiz, qoy bunun əvəzini sevgi ilə çıxsın. Mən də illərlə çəkdiyim əziyyətləri unudub yeni həyata başlayım.

-Yeni həyata subay qızla başlaya bilməzdiniz?

-İnşallah, elə subay qızla da başlayacam. Amma bir ildən sonra.

-Anlamadım.

-Məsələ burasındadır ki, keçmiş arvadınız çarpayı sevişmələrindən sonra sizi pisləyib arxanızca ən nalayiq sözlər işlədəndən, tüpürəndən, hətta buşmenlərin adamı diri-diri torpağa gömdürən pis qarğışlarını edəndən sonra - təbii ki, guya inandırmaq üçün ki, siz əclafsız - qərara aldım onun dediklərini yoxlayım; naməlum adam kimi dostlarınızla əlaqə qurub əslində necə olmağınızı dəqiqləşdirdim. Məlum oldu ki, siz az məvacibinizlə ailənizi yaxşı dolandırmağı bacarmısız, dilinizdən xoş sözlər əskik olmayıb, ehtiyacı olanlara əl tutmusuz, hətta həyat yoldaşınıza yunan kürkü almaq üçün bankdan kredit də götürmüsüz, arvadınızın xəyanətini biləndən sonra sarsıntı keçirmisiz, gecə-gündüz sərgərdan kimi küçələri boş-boş veyillənmisiz, qəlbiniz sınıb. Sonda bu nəticəyə gəldim ki, arvadınız sizə qudurmuşluğundan xəyanət edib. Ona görə onunla evlənirəm ki... bir güllə ilə iki dovşan vurum. Birincisi, onun banklardakı pulunu, imarətlərini adıma keçirim. Bu heç də asan başa gəlməyəcək, o qəpiyinin də qədrini bilir... bir-iki dəfə "gedirəm səndən" deməklə yumşalacağına əminəm... və ikincisi, ona həyatı başa salım ki, vicdanlı ərə xəyanət etməzlər. Bal ayı bitəndən, var-dövlətini adıma keçirəndən sonra ona cəhənnəmi yaşadacam. Qoy bilsin ki, insanın etdiyi bumeranq kimi özünə qayıdır. Qoy sizi həsrətlə xatırlasın, gözlərinin yaşını axıdıb anlasın ki, o, sadəcə, günah işlədib, bağışlanması mümkün olmayan günah. Sadəcə, Tanrının onu nə vaxt cəzalandıracağına səbrim çatmadı. Bunu mən etməliyəm... tezləşdirəcəm o cəzanı... və bir ildən sonra boşanmaq haqqında bəyanat verəcəm. Bilirəm düşünəcəksiz ki, bunu elə var-dövlətə görə edirəm... inanın ki, günahını bumeranq kimi özünə qaytarmaq fikri məndə yarananda, heç onun dövlətli olmasını bilmirdim... Bunu biləndən sonra düşündüm ki, niyə də bir güllə ilə iki dovşan vurmayım?! Nə deyirsiz... mənə bu yolda xeyir-dua verirsiz?

Bayaqdan susan və bir saatdır qəmlilikdən rəngi qaralan kişinin üzündə elə bu dəqiqələrdə sevincli ifadələr çöhrələndi. Gözlərini döyüb elə hey baxdı, baxdı, baxdı. Başını aşağı saldı. Yenə dəqiqələrlə gözlərini döydü. Sonra kədərləndi və heç nə demədən kafeni tərk etdi.

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 25 fevral.- S. 11.**